# “Siyasi repressiya qurbanları” muzeyi

**2019-cu il may ayının 24-də Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin inzibati binasında “Siyasi repressiya qurbanları” muzeyinin açılışı olmuşdur.**

Muzeyin ekspozisiyası ölkəmizin tarixinin ən acı səhifələrini əyani surətdə əks etdirir. 1920-1950-ci illərdə dövlətin apardığı siyasət nəticəsində on minlərlə ictimai və dövlət xadimi, elm, mədəniyyət, incəsənət işçiləri, sıravi vətəndaşlar təqib olunmuşdur.

1950-ci illərin ikinci yarısında siyasi repressiya qurbanlarının əksəriyyətinə bəraət verilməsinə baxmayaraq, bolşevizmin hökmranlıq etdiyi illərdə siyasi repressiyalar haqqında məlumatların yayılmasına qadağa qoyulmuş, xalqın ayrı-ayrı görkəmli şəxslərinin




güllələnməsi və ya sürgünü onların “kommunizm quruculuğuna əngəl törətmək” ittihamları ilə izah edilirdi. 15 mart 1996-cı il tarixdə Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin imzaladığı “Siyasi repressiya qurbanlarının reabilitasiyası haqqında” Azərbaycan Respublikası Qanununda bu hadisəyə hüquqi qiymət verilmişdir. DSX-nin “Siyasi repressiya qurbanları” muzeyinin təşkilində məqsəd repressiya qurbanlarının xatirəsinə ehtiramla yanaşı, yaxın keçmişimizin qanlı səhifələri, totalitar rejimin hakim ideologiyadan fərqli düşüncəyə sahib vətəndaşlara münasibətdə dözümsüzlük nümayiş etdirərək onların saxta ittihamlar əsasında güllələnməsi, sürgün edilməsi və işgəncələr verilməsi haqqında böyüməkdə olan nəsli düzgün məlumatlandırmaqdır. Muzey mülki vətəndaşların ziyarəti üçün açıqdır. Burada araşdırma aparmaq üçün tələbələrə, tədqiqatçılara şərait yaradılıb. Onlar muzeyin kitabxanasında saxlanan kitablarla, məsuliyyətə cəlb olunmuş şəxslərin cinayət işləri ilə tanış olmaq imkanı əldə edə bilərlər.

Azərbaycan. - 2025.- 22 noyabr (№248).- S.11.